İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğu



# İranda

## Novruz Bayramı adət-ənənələri

İranda Novruz Bayramı adət-ənənələri



İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulluğu

بسم الله الرحمن الرحیم




Allahın adı ilə

# Ön söz

Yazın gəlişi, əcdadların ortaq mirası olan təntənəli bahar bayramı olan Novruzun yetişməsi münasibətilə hamını təbrik edirəm. Çəkilən zəhmətlərin və təlaşların nəticəsi olaraq bu qədim bayram barəsində olan kitabın hazırlanmasının ardınca onu sizə təqdim etdiyimiz üçün çox xoşbəxtəm. İran təqviminə görə 1402-cü ildə İranda ilin dəyişilməsi ilə bərabər, həm də yeni əsrə də qədəm qoyulur. Novruzun gəlişi təbiətin çiçəklənməsi ilə yanaşı, qəlblərimizin, ruhumuzun və həyatımızın də təmizlənməsi üçün fürsət yaradır. Bu bayramda bütün inciklikləri bir kənara qoyaraq, adət-ənənəyə görə ailənin böyüklərini ziyarət edib, qəlbizimdəki məhəbbət və dostluq səhifəsini yenidən açaq.

Yeni ilin sizə xeyir-bərəkək, sağlamlıq və xoşbəxtliklə dolu bir il olmasını arzu edirəm. Novruz adət-ənənələri haqqında bu kitabı sizə təqdim edir və sizing üçün hər şeyin ən yaxşısını diləyirik!

**Seyid Əhməd Hüseyni - İran İslam Respublikasının Naxçıvandakı Baş Konsulu**




**Kitabın adı: İrandə Novruz Bayramı adət-ənənələri**

**Tərtibatçı: Əbülfəzl Rəbii**

**Çap: 2023**

**E_BOOK**

**Dizayner: Əbülfəzl Rəbii**




# Mündəricat


Novruz bayramı ____ 7

Novruzun mənşəyi ____ 14

Həftsin süfrəsi ____ 18

Çərşənbə bayramı ____ 29

Novruz və İran xalqları ____ 35

Lorestanda Novruz ____ 36

İlin son cümə günü ____ 38

Bayram görüşü ____ 39

Xürrəmabadda Sizdəh be dər (13 – cü gün) ____ 40

İranın Şərqi və Qərbi Azərbaycan vilayətlərində Novruz ____ 41

Xorasanda Novruz ____ 54

Mazandaranda Novruz xanlıq ____ 57

Dünyada Novruz ____ 60

Dünyada sülhün simvolu olan Novruz ____ 61

Novruzun tarixi ____ 61

Azərbaycanda  Novruz şənliyi ______ 63

Tacikistanda Novruz bayramı ______ 68

Novruzu qarşılamaq üçün çiçək mərasimi ______ 69

Tacikistanda “Çəharşənbə suri” (Ataş Pərək) ______ 69

Qazaxıstanda Novruz ______ 71

Türkmənistanda Novruz ______ 72

Qırğızıstanda Novruz ______ 74

Özbəkistanda Novruz ______ 75

Əfqanıstanda Novruz ______ 77

Pakistanda Novruz ______ 79

Türkiyədə Novruz ______ 80

İraqda Novruz ______ 81

Misirdə Novruz ______ 82






**بهاری داری از وی بر خور امروز**

**که هر فصلی نخواهد بود نوروز**

**گلی کو را نبوید آدمی زاد**

**چو هنگام خزان آید برد باد**

**نظامی گنجوی**





# Müqəddimə

Təbiətin xoş tərənnümü olan bahar bayramı qəlblərə sevinc bəxş edir. Ruhu təravətləndirir. Dodaqlarda xoş təbəssüm yaradır. Baharın əvvəlində çiçəklər açanda, bitkilər cücərəndə, ağaclar tumurcuqlayanda, dəyərli insan varlığı da dəyişməli və yenidən doğularaq, mavi səmanın genişliyi qədər baharın sevinc və şadlığıyla dolmalıdır. Yeni ilin əvvəlində İran xalqı bahar və yeni il bayramını qarşılamaq üçün evlərini təmizləyir, köhnə əşyalarını dəyişdirir, yeni paltarlar geyinir və ilin dəyişməsi ilə eyni zamanda ruhlarını və qəlblərini cilalayırlar. “Həft sin” süfrəsinə müqəddəs Quranın qoyulması ilə bərabər, ruhun və qəlbin təravətlənməsi, insanların həyatının öz istədikləri kimi dəyişilməsi üçün dualar oxunur. Həqiqətən də, insan yenilənməyi, çiçəklənməyi və xoşbəxtlik bəxş edərək, özünü həyatda mənalı etməyi, həmçinin dəyişikliklər şəraitində yaşamağı bahardan öyrənməlidir.

Sonda fürsətdən istifadə edərək, BMT tərəfindən “Sülh mədəniyyəti” olaraq qəbul edilən, region xalqlarının sülh və dostluq rəmzi hesab olunan Novruz bayramı və 1402 - cü ilin başlanması münasibəti ilə sizi və ailənizi səmimi qəlbdən təbrik edir və hər gününüz “Novruz” olmasını diləyir!

**Əbülfəzl Rəbii – İran İslam Respublikasının Naxçıvandakı**

**Baş Konsulluğunun mədəniyyət attaşesi**

**Allahın adı ilə**

## Novruz bayramı



Novruz İranın ən qədim bayramlarından biridir. Novruzun mənşəyi düzgün və birmənalı şəkildə göstərilə bilməz. Digər mədəniyyətlərdə və ölkələrdə Novruza bənzəyən ayin və mərasimlərə rast gəlmək olur. Məsələn, qədim babil və assuriyalılar arasında ilin əvvəlinin qeyd olunması Novruz bayramı ilə əlaqələndirilə bilər. Ancaq bunda heç şübhə yoxdur ki, Novruz qədim zamanlardan etibarən İranda qeyd olunmuşdur. Hətta, Əhəməni

şahzadələrinin ecazkar və əsrarəngiz Persepolis şəhərini Novruzu qeyd etmək üçün ucaltdıqları barədə, fikir də mövcuddur. Digər tərəfdən isə, bu gün bildiyimiz və Novruzun bayramı ayinləri kimi dəyərləndirdiyimiz şeylər müxtəlif inanc sistemlərinin qarışığıdır. Bu bayramların bir qismi mifik xarakter daşımaqda idilər. Dünya mifologiyası ilə bağlı olan bu ayinlərin bəziləri adət və inanc, digər hissələri isə kainat və təqvim ilə də əlaqəlidir. Bu inancların hər biri isə Novruzun qeyd olunması ayinlərində dərin izlər buraxıblar. Məsələn, nümunə olaraq qeyd etmək olar ki, qədim İranda "Qahanbar" adlanan altı böyük mərasim şənliyi təşkil olunmaqda idi. Kainatda baş verən dəyişikliklər və bu dəyişikliklərdən əmələ gələn hadisələr



ilə bağlı olaraq da, bayramların qeyd edilməsi müşahidə edilmişdir.

Həmin bayramların bəziləri isə, daha çox təsərrüfatla məşğul olan insanların həyat tərzini əks



etdirməkdədir. "Qahanbar" ın altıncı və sonuncusu bayramı da "Həməspətəmdəm" adlanmaqda idi. Novruzun bəzi xüsusiyyətləri, adət və ənənələri də qədim dövrlər və "Qahanbar" mərasimləri ilə əlaqəlidir. Bununla əlaqədar isə, bir çox iranlıya tanış olan mifik bir bayram nümunəsi kimi, Cəmşidin dövründə baş verən simvolik və mifik bir hadisəni göstərmək olar. Hadisə belədir: "Görkəmli şahzadə üçün təmtəraqlı bir taxt düzəldirlər. Cəmşid isə bu taxtda oturaraq, divanını da götürüb səmaya ucalır. İranlıların nəzərində bu hadisə o qədər əziz və qiymətlidir ki, o günü bayram olaraq qeyd edirlər.

Əsrarəngiz bir xüsusiyyətə malik olan Novruzun əhəmiyyətli şəkildə qeyd olunmasına təsir edən digər bir amil isə yeni ilin başlanğıcını bildirən baharın qeyd edilməsidir. Günəş həmişə iranlılar tərəfindən əzizlənərək yüksək qiymətləndirilib. Beləliklə də, baharın ilk günü yaz və gecə-gündüz bərabərliyi ilə əlaqədardır. Bu o deməkdir ki: "İlin ilk günü, mart ayının 21-i, gecə və gündüz bərabərləşir. O zamana qədər isə, gecənin müddəti üstünlük təşkil etməkdədir." İran simvolizmində bir fenomen olan işığı daim əzizləyir və salamlayırdılar. Beləliklə, İranlıların

gözündə gecə ilə gündüz və ya işıqla qaranlığın bərabərləşməsi kosmik olduğu qədər, çox mübarək bir hadisə kimi də qəbul olunmuşdur. Çünki o vaxtdan etibarən işıq hökmranlıq etməyə başlayır və gecə payız fəsilinə qədər qısalmağa davam edir. O vaxtdan bəri gecə ilə gündüz yenidən bərabərləşir. Ancaq iş gündüzün zərərinə, gecənin isə xeyrinə davam edir. Əhrimənin uğursuz, zərərli, qaranlıq və soyuq günləri başlayır. Novruz isə, bütün bu bayramların qarışığıdır. Yaxud, Novruz adət - ənənəsinə təsir edən bir başqa bir mərasim də, “Fərvardin bayramı” və ya “Foruhər” günüdür. Bu gündə ölənlərin xatirəsi yad edilir və onların ruhlarının cənnətdən dünyaya, onların görüşünə gəldiyinə inanılır. Buna görə də, iranlılar bayramı qeyd edərkən, digər qonaqlar kimi, cənnətin ecazkar qonaqları üçün də süfrə açırlar. Bu mərasimlərdən götürülərək, istifadə etdiyimiz normalar, adətlər və üsullar mövcuddur. İranlılar bu qonaqları qəbul edərkən həmin prinsip və normalardan istifadə edirlər. Məsələn, evlərin süpürülməsi, yeni paltarların geyilməsi və s. kimi ənənələr hələ də Novruzun adətləri sırasında yer almaqdadır.

Novruzun rəmzləri haqqında: bu səhnələrin hər birinin simvolik təzahürü olaraq, “həft sin” (yeddi sin), Novruzun bir sıra tələb və əlamətləri ilə birlikdə işığın və günəşin təriflənməsi ilə əlaqədardır.

Novruzla bağlı ilk yazılara Pəhləvi mənbələrində rast gəlinməkdədir. Bu mətnlərdə Dari Fars dilindən istifadə edilmişdir. Novruz Pəhləvi dilində "Nok Ruç", ərəb dilində  isə "Nok Ruz" adlanırdı. Fars dilində isə bu ad “Novruz” şəklində istifadə olunur və yəni yeni gün deməkdir. Fars dili və ədəbiyyatında Novruzdan istifadə bu dildə yazılan ilk şeirlərdə də müşahidə edilir. Samani və Qəzənivi dövrlərinin şairlərinin şeirləri Novruzun tərifləri ilə doludur.

Novruz bayramı baharla əlaqələndirilir. Bahar fəsili fars dilində poetik yaradıcılığın ən təməl mövzularından biri olmuşdur. Novruz həmişə iranlıların diqqət yetirdiyi bir sahə olub, bunun tərifində çox xoşa gələn və ürək açan şeirlər yazıblar.

Novruz mərasim və ayinləri daha qədim üsullarla təşkil olunmaqda idilər. İranın böyük şəhərlərində

iranlıların bir yerə toplaşıb qrup şəklində Novruzu qeyd etmələri mümkün olmadığından insanlar bayramı evlərində keçirirlər. Ancaq daha kiçik şəhərlərdə və ya vilayətlədə bu adət və ənənələr hələ də qalmaqdadırlar. İran kəndlərində və ya kiçik şəhərlərdə bu bayram və mərasimdə dəyişikliklər edilərək və daha bir şəkildə orada keçirilməkdədir. Böyük şəhərlərdə isə bayramın təşkili daha da yaxşılaşmışdır. Məsələn, Kürdüstan kəndlərində hələ də “Mir Novruz” var. Xalqddan bir nəfər mərasimi idarə etmək üçün seçilir. O, bir gün ərzində əmr verir və o nə istəyirsə onu yerinə yetirirlər. Onu dörd ayaqlı taxta üzərində şəhərdə gəzdirirdilər. Bu cür ənənələr bu kəndlərdə və kiçik şəhərlərdə hələ də saxlanılmaqdadır. Ancaq Tehran kimi böyük şəhərlərdə bu ənənələr unudulur. Buna görə də, demək olar ki, bu bayram və mərasimlərin digər qədim ölkələrdə də təmiz və saf şəkildə qalmaqdadır.



## Novruzun mənşəyi

Novruz torpağın və yaradılışın mənşəyidir. Novruz İranın mədəni coğrafi platasında yaşayan insanların hər hansı bir etnik qrupdan, dindən və ya irqdən asılı olmayaraq təbii şərait və inancları sistemindən irəli gələn bir bayramdır. Bu bayram, bütün etnik və dini qruplara məxsusdur. Bu bölgədə yaşayan bütün xalqlar və burada yayılan bütün inanc axınları onu qəbul edərək, ilham almış və təsir göstərmişdir. Novruz, tarixin çoxlu eniş-yoxuşlarında, geniş çeşidlilyi və davamlılığı ilə mədəni reallığa çevirilmişdir.

BMT-də qəbul edilən qətnaməyə əsasən Novruz bayramı "Dünyada sülh mədəniyyəti günü" kimi qeyd olunur. Qətnamə təşkilatın əksər üzvlərinin iştirakı ilə qəbul edilmiş və beləliklə də Novruz bayramı beynəlxalq tədbir kimi dünya səviyyəsində rəsmiləşmişdir. Qətnamənin mətni ölkələrində bu bayramı dövlət səviyyəsində qeyd edən ölkələrin, yəni İran, Azərbaycan, Əfqanıstan, Tacikistan, Türkiyə, Türkmənistan, Qazaxıstan və Qırğızıstanın BMT-

dəki daimi nümayəndəlikləri tərəfindən müştərək şəkildə hazırlanmışdır. Hindistan, Albaniya və Makedoniya da səsvermədən əvvəl təşəbbüsçü ölkələrin sırasına daxil olmuşdurlar.

Novruz qədim Pars ölkəsində yarandığı ilk günlərdən indiyə qədər müxtəlif xalqların və millətlərin ən əziz bayramı olmuş və Asiya, Hindistan yarımadası, Mərkəzi Asiya, Orta Şərq, Qafqaz, Balkan, Qara dəniz regionu və dünyanın bir çox məntəqələrinin insanlarının müştərək dilinə çevrilmişdir. Bu gün bütün dünyada 300 milyondan artıq insan bu bayramı qeyd edir. Novruz gününün qeyd edilməsi əsrlər boyu insani dəyərləri daşıyan parlaq bəşəri sivilizasiyaların, tarixlərin və dəyərlərin qeyd edilməsidir.

Bəzi alimlər bu bayramın tarixi köklərini Cəmşid ilə əlaqələndirir və Novruzu "Cəmşidi Novruz" u olaraq adlandırırlar. Bu qrup, Cəmşid Şahın bir sıra sosial islahatlardan sonra “Qızıl Taxt” ın üzərində əyləşdiyini və Dəmavəndlə Babil arasındakı məsafəni bir gündə qət etdiyini, o günün isə Hormozd Günü (aprel ayında)

olduğuna inanır. Çünki insanlar bunu gördükdə təəccüb edərək, həmin günü "Novruz" adlandırdılar.

Böyük Fars şairi Firdovsi də Novruzun mənşəyini Şahnamədəki Cəmşid şaha aid edir. Ancaq "Novruz" bayramını İrandakı digər qədim bayramlardan ayıran və bu günə qədər davam etməsinə səbəb olan amil, doğuş və yenilənmə mənasını verən Novruzun “mövcudluq” fəlsəfəsidir ki, bu da təbiətin yeni il bayramı ilə eyni zamanda müşahidə edilməkdədir.

Kollektiv həyatın təzahürlərindən biri də ibadət, şükür və ya xoşbəxtlik niyyəti ilə meydana gələn qrup şənlikləri və mərasimlərinin təşkil olunmasıdır. Buna görə, İran cəmiyyətinin bayram və mərasimləri üç əsas qrupa bölünə bilər:

1. Dini və məzhəbi bayram və mərasimlər

2. milli və qəhrəmanlıq mərasimləri

3. qədim və mifik bayram və marasimlər

Keçmişdə İran cəmiyyəti insan psixologiyası üzərində güclü təsirinin olması səbəbindən xoşbəxtliyə xüsusi önəm verirdilər. Onlar Zərdüşt dininə görə sevinc, xoşbəxtlik və dua ilə birlikdə “Tireqan”, “Mohreqan”, “Sədeh” və “Espandeqan” (Esfəndeqan) adlı dörd böyük və xüsusi şənlik mərasimi təşkil edirdilər. Bu vaxt Novruz təbiətə və insan ruhuna təravət vermək xüsusiyyətlərinə görə qorunub saxlanıldı. Ancaq dəyişən mədəni hadisələrin qanununa görə, Novruz qaçılmaz olaraq keçmişlə müqayisədə dəyişikliklərlə məruz qaldı.

Forurinin kitabına əsasən, Sasanilər dövründə Çindən İrana kaolindən hazırlanmış gözəl boyalı və qiymətli çərçivələr gətirilirdi. Çin və İranın ən əhəmiyyətli ticarət mallarından biri, sonradan gəldikləri ölkənin adı ilə Çini adlandırılan bu qablar idilər ki, digər bir ləhcə ilə İranda “Sini” qablar adı ilə tanındılar.

## Həftsin süfrəsi

Həftsin masasında qoyulan məxsusi qidalar bunlardan ibarət idilər: sarımsaq, alma, səməni, iydə, sirkə, səmənu (şirin yemək növüdür), sumaq



Həftsin süfrəsi iranlıların Novruz bayramı zamanı açdıqları süfrənin adıdır. Bu süfrəyə düzülən nemətlər aşağıdakı xüsusiyyətlərə malik olmalıdırlar. Fars dilində olmalıdır. “Sin” (S) hərfi ilə başlanmalıdır. Hansısa bitki ilə əlaqəli olmalıdır. Yeməli olmalıdır. Çətin adı olmamalıdır və faydalı olmalıdır. Buna görə də, bu xüsusiyyətlərə malik olmayan sözlər, “sin” hərfi ilə başlamış olsalar belə, “həft sin” süfrəsinə aid edilə bilməzlər. Fars dilində bu xüsusiyyətlərə malik sadəcə yeddi şey mövcuddur.

Müqəddəs Kitab(Quran Kərim) – Novruz süfrəsinin əsas komponentlərindən biri olmaqla yanaşı, ailələr etiqad etdikləri müqəddəs kitabı da süfrələrinə qoyurlar.



Sarımsaq - Həyatın davamlılığının rəmzidir.



Alma – Gözəllik və sağlamlıq rəmzidir.



Səmənu (Səmənu şirin yemək növüdür.Buğda və arpadan hazırlanır) şadlıq, yaşıllıq, insan həyatı və təbiətə bağlılığın rəmzidir.



İydə - Eşq və bağlılığın rəmzidir. Törəyiş və artımın əsil başlanğıcını bildirir.



Sirkə - Ömür və səbrin rəmzidir.



Səməni – bitkilərin doğuluşu və bar verməsinin rəmzidir.



Sumaq – Həyatda şadlıq və ləzzətin rəmzidir.



Lakin bunlardan əlavə olaraq da, süfrəyə bəzi yemək və bitkilər və bəzi komponentlər də qoyulur.

Yumurta – Doğum və çoxalmanın simovoludur.



Ayna – Aydınlıq simvoludur və mütləq süfrənin başında qoyulmalıdır.



Şam – Dünyanın və ailənin aydınlanmasının simvoludur.



Çətinlikləri aradan qaldıran çərəz və şirniyyat – Həyatın ləzzəti və şirinliyinin nişanəsidir.

Su və balıq – Həyatda bərəkət simvoludur. Balıq Esfənd (mart) ayının simvolu olaraq süfrəyə qoyulur.



Sikkə - Bərəkət və daha çox qazanc niyyəti ilə süfrəyə qoyulur.



Bəziləri buna inanırlar ki, “zənginlik” rəmzi sayılan “sikkə” ilə “paklıq” rəmsi zayılan “su” yan-yana qoyulmalıdır. Sikkəni içərisi su ilə dolu olan bir qabın içərisində süfrəyə qoyurlar.

Saat – Həyatın axarının simvoludur.

Sümbül – Həyatın təravətli ətrinin və gözəlliyinin simvoludur.

Sərv ağacının budağı, nar dənələri, keçi söyüdü gülü, naringi suyu, çörək və pendir, şamdan və s. də “Həft sin” süfrəsinin əlavə komponentləri sırasında qəbul edilə bilərlər.

Armud – Gözəl qoxu və təravətin simvoludur. “Həft sin” in fəlsəfəsi nədir? Əvvəlcə onu demək lazımdır ki, “yeddi” ədədi qədimdə iranlılar üçün müqəddəs sayılırdı və onlar yeddi planeti “ Zöhrə (venera)”,“ Müştəri (Yupiter)”, “ Ətard (Merkuri)”, “Zohal (Saturn) ”, “ Mərix (Mars) ”,

“ Dünya”, “ Günəş” simvolizə etməkdədir. Zərdüştlük dininə inanan və ağılın müqəddəs olduğuna etiqad bəsləyən ulu babalarımız hesab edirdilər ki, “Sepənd Mino” kimi də tanınan “Ahuramazda” “Emşaspəndan” adlı altı vəziri var idi. Yəni bu əbədi müqəddəs şəxslər Sepənd Mino ilə “Həft sepənd” i təşkil ediblər.

Yeddi ədədi üç və dördün cəmindən ibarət olması səbəbindən riyaziyyatçılar üçün də həndəsi şəkildə üçbucaq və dördbucağın, yəni simmetriya və kamillik rəmzindən təşkil olunduğundan, çoxalma və təkamül anlayışını ifadə edir. Yeddi, yeddi min və s. danışıldığı zaman onun çoxlu mənaları olduğu anlaşılır. Hind-Avropa, eləcə də Hind-İran xalqları arasında bu ədəd uğurlu və müqəddəs sayılır. Bu ədədin millətlərin mədəniyyətindəki rolu çox müsbətdir. Həqiqətən də, ötən zaman ərzində, səmavi dinlərdə, xalqın müşahidə və təcrübələrində, xalqın dini inanclarında, yeddi ədədinə daha xüsusi önəm verilməkdədir. Məhz bu səbəbdəndir ki, əsrlərlə iranlıların adət-ənənələrində də yeddi ədədinin çox mühüm bir yeri vardır. Həft sin süfrəsinin bəzədilməsi və düzülmsində də bu ədədin önəmi bariz şəkildə görülməkdədir. Təbii hadisələrə, dini kitablara,

xalq inanclarına, memarlıq sənətinə, musiqi, xəttatlıq və ya millətlərin ədəbiyyatına nəzər saldıqda, yeddi ədədinin nə dərəcədə önəm kəsb etditiyini görmək olar. Qurani Kərimdə və İrandakı müsəlmanlar arasında yeddi ədədinin digər ədədlərdən daha önəmli rola malikdir. Bəzi Quran ayələrində və fəsillərində yeddi rəqəmdən bəhs edilir və Quranın yeddi mövzudan ibarət olduğu düşünülür. Həccin yeddi mərhələsi var. İlk qarilər yeddi nəfər idilər. İncil və Tövratın səmavi kitablarında bu rəqəm vurğu ilə dəfələrlə təkrarlanır. Həft Emşaspand də Zərdüştlər tərəfindən qiymətləndirilmiş və Həft Əxtər ayinlərində mötəbər hesab edilmişdirlər. Əcdadlarımız yer və göyləri yeddi mərtəbəli hesab etmiş və dünyanı yeddi dənizi olan yeddi iqlim adlandırmışdırlar.

Dünyanın altı mərhələdə və ya dövrdə yaradıldığı deyilir. Dünyanın yaranmasının sonu olan yeddinci gündə ibadət edilmişdir ki, bu mərasimin isə hələ də davam etdiyi müşahidə edilməkdədir. Millətlərin inancları da yeddi rəqəminə və roluna diqqəti göstərir. Qədim dövrlərdə misirlilər yeddi sütuna, xaldeylər yeddi dərəcə mükəmməlliyə, babillilər yeddi dərəcə cənnətə, yunanlar

yeddi tanrıya, hindular yeddi Aditya tanrısına inanır, Romalılar isə Yeddi Ananın və ya Septipatranın bayramını qeyd edirdilər. Bir çox başqa millətlər də bu rəqəmin önəmini başa düşdülər. Dünyanın yeddi möcüzəsindən də bəhs olunur. İranın ənənəvi musiqisində yeddi alət mövcud olmuş və yeddi xətt üsulu müəyyən edilmişdir. Sənətdə və ədəbiyyatda da sənətçilərin və yazıçıların yeddi rəqəminə diqqəti göz qabağındadır.

Əsasən, Hind-Avropa xalqları arasında, eyni zamanda iranlılar və hindular arasında yeddi rəqəm uğurlu və mübarək sayılır. Elə buna görə də, dini inanclara söykənən İran mədəniyyətində yeni ilin xoş və uğurlu bir il olması, bolluq, bərəkət və firavanlıqla keçməsi ümidi ilə bayram süfrəsi üzərində yeddi nemət düzülməkdədir.

## Çərşənbə bayramı



Novruz ayinlərindən biri də, bir neçə fərqli mərasimin qarışığı olan “Çəharşənbe suri ” adlandırılan mərasimdir ki, bəzi şəhərlərdə ilin son çərşənbəsi zamanı qeyd edilməkdədir. “Çəharşənbe suri barəsində kitablarda və tarixi yazılarda hər hansı bir material və ya istinad tapılmamışdır və yalnız bu keçən əsrdə, daha doğrusu son yarım əsrdə bu mövzu ilə bağlı olaraq çoxsaylı məqalə və araşdırmalar nəşr edilmişdir. Qədim iranlılar yaradılış prinsipini məqsədyönlü və mənalı hesab edirdilər və bu səbəbdən adi yaşayış ilə yanaşı həyatda hesablanmış şəkildə istifadə etmək üçün hər şeydə bir məna və ibrət axtarırdılar. Dörd ünsürə, xüsusən də "oda" ehtiram qədim iranlıların inanc və münasibətlərində çox əhəmiyyətli bir yer tuturdu. Od elementi əcdadlar tərəfindən hər kəsin dərs götürməli və öz həyatında onları tətbiq etməli olduğu xüsusiyyətlərə sahib olduğuna inanırdı:

Alov kimi təmiz və parlaq olmalıdırlar

Alov şüaları kimi yuxarı qalxmalıdır

Alov kimi çirkləri təmizləyib, təmiz qalmalı, xüsusən də alov kimi zəhmətkeş olaraq, ömürünün sonuna qədər çalışmaqdan əl çəkməməlidir. Qeyd edilməlidir ki, tarix yazanlar və filosofların bir qismi qədim zamanlarda ondan çox məqsədli istifadə edilməsi səbəbindən ona çox ehtiram bəsləməkdə idilər.

İranın bütün şəhər və kəndlərində tanıdığımız ilaxır çərşənbəsinin keçirilməsi belədir:

İlin son çərşənbə gecəsi (yəni çərşənbə axşamı gün batmasına yaxın), qapının önündə, evin kənarında, uyğun bir yerdə od yandırılır. Ailədə olan kişilər, qadınlar və uşaqlar odun üstündən tullanıb deyirlər: mənin sarılığım sənə, sənin qırmızılığın mənə ", köhnə ilin xəstəliklərini, kədərlərini və qayğılarını oda tapşıraraq, yeni ilə şadlıq və xoşbəxtliklə başlayırlar.

Ev təmizləndikdən sonra, evdə o zamana kimi istifadə edilmiş olan köhnə kasə, boşqab və küp kimi saxsı qablardan biri evin damından küçəyə atılır. Üzərlik yandırmaq, qoz-fındıq yemək, falçılıq, "qulaq falı" (küçədə yoldan keçənlərin sözlərini dinləmək və məzmunundan öz

niyyətləri üçün məna çıxarmaq), "Qaşıqlama" (ümumiyyətlə qadınlar başlarını örtüb evləri qaşıq və ya açarla döyürlər, ev sahibi qabın içərisinə şirniyyat, meyvə və ya pul qoyub verir) ayrıca bir inanc və adətdir, xüsusən yeniyetmələr arasında hələ də, tamamilə unudulmayıbdır. Bu adət və inanclar müxtəlif şəhərlərdə bir-birlərindən fərqlidir.

Əlbəttə ilaxır çərşənbəsi qədim İslamdan əvvəl olan bir ənənə deyil. O vaxt, nəinki həftənin, hətta, ayın da bütün günlərinə adlar verilmişdi. Professor Pourdaoud bu barədə yazır: “İranın Novruz tonqalı qalaması qədim adətlərdən biridir. Şübhə yoxdur ki, bu adətin İslamdan sonra, ilin son çərşənbəsi gecəsinə düşməsi adət olmuşdur. Çünki iranlıların şənbə və cümə günləri yox idi. Ərəblərin inancına görə çərşənbə pis və nəhs bir gündür. Jahez özünün “Əl-Məhasin və Əl-Əzdad” kitabındada bunları yazır: “Xalq inancında Çərşənbə uğursuz bir gündür. Çərşənbə gecəsi səyahət etməməlisən və xəstələri ziyarətə getməməlisən. İranın Urmiya, Ərdəbil və Zəncan kimi bəzi şəhərlərində, mart ayının bütün çərşənbələrinin müəyyən bir rolu və adı vardır. Məsələn, Zəncan bölgəsində belədir: İlk çərşənbə

"Mole" adlanır və o, evin xalçalarının yuyulmasına və təmizlənməsinə həsr olunur. İkinci çərşənbə "Sule" adlanır. Bu gün bayram üçün avadanlıq və vəsait almağa gedilir. Üçüncü çərşənbə "qole" adlanır və Novruz səmənisi üçün buğda, mərcimək və s. əkməyə həsr olunur. İlin dördüncü və son çərşənbəsi (çəharşənbə suri) "Koleh" adlanır. (Koleh türk dilində köhnəlmiş deməkdir.)

İranın bəzi şəhərlərində, o cümlədən İlam (Novruzabad), Tuysərkan, Kaşan, Zahedan (Moud qəsəbəsi) və "çəharşənbə suri" mərasimi Səfər ayının son çərşənbə günü təşkil edilir və tonqal qalamaq bir ənənədir.

Səfəvilərin Kerman xatirələrinə görə, İsfahandakı ilaxır çərşənbəsinə "Qırmızı çərşənbə" də deyilir. İlaxır çərşənbəsinin İslamdan əvvəl bir adət olmadığını göstərən digər səbəb və iddialardan biri də mərasiminin çərşənbə axşamı gün batımında olması ola bilər. Qəməri təqvimində günün iyirmi dörd saatının başlanğıcı gün batmadan bir gün əvvəldir. Qəməri təqviminə əsaslanan, Şəban ayında olan ilaxır çərşənbəsi, qurban bayramı, peyğəmbərin (s) vəfatı kimi bir çox dini mərasimlər də, əvvəlki günün axşamı

təşkil edilir. Çərşənbə gününün məşhur nəhs inancı, çərşənbə axşamı günortadan sonra (yəni çərşənbə gecəsi) xəstələrin ziyarıətinə getməmələrinə səbəb oldu. Novruz, Mohregan, Sədeh və s. kimi qədim ayinlər günəş təqviminə görə olsa da, iyirmi dörd saatlıq orucun başlanğıcı sübhdən və ya gecə yarısından başlayır.

"Çəharşənbə suri" ni İranın qədim adət-ənənə və mərasimləri ilə bağlılığı, Samanilər dövründə, "Pəncə" günündə "Sur" adlı bir mərasimin təşkil edilməsi ola bilər. Buxaralı tarixçi, "İlaxır çərşənbə gecəsində" (Novruzdan əvvəl) "köhnə adət" in rəsmi olaraq "Şəbe suri" adlanan mərasimdə tonqal  qalandığını qeyd edib demişdir: "Sonra Əmir Sədid (Mənsur İbn Nuh) sarayında oturduğu zaman, hələ il tamam olmamış, köhnə adətə görə böyük bir atəş qaladılar və ondan bir qədəri sarayın bacasına atıldı və yanğın baş verdi. Bütün saray yandı." Bu gün, 1304-cü ildə təsdiqlənən təqvimin tanınması ilə "Pəncə" bayramlarının qeyd edilməsi (Xarəzmdə ilin əvvəlində, Parsda isə ilin sonu qeyd edilir) haqqında daha az məlumata rast gəlinir.

“Çəharşənbə suri” səfər ayının da sonudur. Əldə olan məlumata əsasən,  digər mərasimlər unudulmuş və yalnız ilin son çərşənbəsində ənənələri özündə cəmləşdirən ilaxır çərşənbə mərasiminin təşkili adəti saxlanılmışdır. İnsanlar Novruzu qarşılayırlar. Qeyd etmək lazımdır ki, ev tikmənin yeni texnologiyalara əsasən icrası, yeni yaşayış kompleksləri və yaşayış evlərinin yaradılması səbəbindən onların ətrafında tonqal qalamaq üçün çör-çöpün olmamasına (qaz və elektrik enerjisinin istilik vasitəsi kimi istifadəsi səbəbindən), evlərin önündə tonqal qalamaq üçün yerin olmaması və s. kimi digər mədəni dəyişikliklərə baxmayaraq, ilaxır çərşənbə mərasimi hələ də şəhər və məhəllələrdə simvolik simasını qoruyur.

## Novruz və İran xalqları

Novruzu bütün təmtəraqı ilə qeyd edən İran qəbilələrindən biri də, Türkiyə, İraq, İran və Suriyada yaşayan kürdlərdirlər. Kürdlər dil və din baxımından fərqli qruplara bölünür. Ancaq hamısı Novruzu qeyd edir. İran sözünün mənası isə Avestada Aryaların məskəni deməkdir. Tonqal qalama və Novruz kürdlərin bayramlarının iki əsas

elementi hesab olunur. İranlılar və xüsusən də kürd tayfaları üçün Novruzun mənası, azadlıq, zalımların köləliyi və əsarətdən qurtulma, yeni bir doğuş, işlərin bərpası və yenidən yaşamağa çalışmaq deməkdir.

## Lorestanda Novruz



Lorestanda Novruz və yeni il mərasimlərinin təşkili demək olar ki, İranın digər bölgələrində olduğu kimi genişdir. Ancaq daha çox qeyd edəcəyimiz bir neçə fərqi də mövcuddur. Novruza hazırlıq qışın başlanğıcı və payızın sonlarında başlayır. Ancaq Novruzdan bir həftə əvvəl işlər daha da şiddətlənir. İnsanlar işlərini görməyə və Novruza

hazırlaşmağa başlayırlar. Evin qadını, qızlarının və qonşularının köməyi ilə "Qardileh" (evin təmizlənməsi) mərasimini yerinə yetirirlər. Onlar qapıları, divarları, pəncərələri, xalçaları və xalıları, eləcə də bir il və ya daha az istifadə etdikləri ev əşyalarını təmizləyir və yuyurlar.

Evi yenidən qaydaya salırlar. Bundan əlavə, ailənin qadınları ailənin hər bir üzvünün sağlamlığı üçün cücərməsi üçün buğda, mərci, arpa və küncüd toxumlarını bir qaba əkirlər. (bayram səmənisi)

Qonaq qəbul etmək üçün imkan daxilində süfrəyə kifayət qədər şirniyyat və qoz-fındıq da qoyulur. Keçmişdə Lorestanda Novruzda bişən və bol rifah içində olan ən çox yayılmış şirniyyat növləri Xürrəmabad və Borucərd üçün tortlar, un və düyü çərəzləri, koluçələr, bərsaq və qavut idi. Amma bugün ölkə digər şirniyyatlar kimi geniş istifadə olunan şirniyyatlar da mağazalar tərəfindən bişirilir və satılır. Lazımlı işlər görüldükdən, yeni paltarlar geyildikdən və evlər təmizləndikdən sonra bayram mərasiminə başlanılır.

## İlin son cümə günü



Xürrəmabad sakinlərinin hər biri, fiziki cəhətdən güclü olduqları təqdirdə, ilin son cümə axşamı yeni paltarlar geyinir, həmçinin dünyasını dəyişənlər üçün şaftalı, noğul, xurma və s. ehsan edirlər. Ailədən dünyasını dəyişənlərin məzarlarının başına toplaşıb, ilin son cümə gününü qəbiristanlıqda mərasim təşkil edirlər. Ölülərə Fatihə oxuyaraq, onların xatirələrini canlandırıb, yeni nəsillərə onların haqqında danışırlar.

Hər bir yeni gələnin (yerli olmayanların) fərq edə biləcəyi və onların marağına səbəb olan şey isə kiçik

uşaqlardır (7 yaşınadək). Onlar dərvişlərin papaqları və gödəkçəli ağ köynəklər geyinərək, baltaları ilə valideynlərinin yanında dayanırlar və kimin nəziri və ya sədəqəsi varsa, onlara verir. Günün sonunda yığılan pul və digər nəzirləri uşaqlar və ya onların böyükləri ehtiyac sahiblərinə verirlər. Bu işin fəlsəfəsi, valideynin və ya ailə üzvlərindən birinin ürəyində olan niyyəti səbəbindən uşağı dərviş etməsidir. (3 ilə 7 il arasında) ki, Allah onları qəzalardan və fəlakətlərdən və acı hadisələrin ısırığından uzaqlaşdırsın. (Bayramınız mübarək)

## Bayram görüşü



Kişilər il təhvil olduqda və Quranı başı üzərinə qoyduqdan sonra, böyükləri ziyarət üçün evlərə gedirlər. Ardınca isə, başqa evlərə gedib, o evlərin insanları ilə də bayramlaşırlar. Beləliklə də, ilin İlk günlərində bütün evlər ziyarət edilir. Kişilərdən sonra qadınlar da Novruzun ikinci günü ziyarətlərə gedib, bayramlaşırlar. Ümumiyyətlə, uşaqların bayramlığı bir və ya bir neçə boyanmış yumurtadır. Bu şəkildə ailə üzvləri təmiz, səmimi və mehriban cümlələrlə bir-birlərinin Novruz bayramını təbrik edirlər.

## Xürrəmabadda Sizdəh be dər (13 – cü gün)



Xorramabadda Novruzun on üçüncü gününü qeyd etmək əvəzinə, on dördüncü günü qeyd olunur. Həmin mərasimi isə, on dördüncü Novruz günündə qeyd edirlər. Onlar “Sizdəh be dər” i qəbul etmirlər. Beləliklə də, Xürrəmabadın bir çox köklü ailəsi “Çahardəh be dər” gününü bayram edirlər.

## İranın Şərqi və Qərbi Azərbaycan vilayətlərində Novruz

"Kuse Berneşin" və ya "Mir Noruzi" kimi mifik ayinlər hər bölgədə fərqli bir adla yerinə yetirilən simvollar idilər. Məsələn, İranın Şərqi və Qərbi Azərbaycan vilayətlərində "Kosa Gəlin" mərasimi Novruz sevincinə işarədir. Kosa da Hacı Firuz kimi qeyri-adi paltarlar geyinən və əlində çubuq tutan bir xarakterdir. O, başına qotazlı papaq taxır və yanındakı dostu ilə şən mahnılar oxuyur. Bu mərasim əkinçi və maldar insanlar arasında keçirilir. Xalqın inancına görə, onlara xeyir və bərəkət gətirir.

Digər bir mərasim isə, Gilanda qeyd edilən “Ğol o Kas” adlı şənlik mərasimidir. Bu mərasimdə, soyuqla isti, ağ ilə qara, xeyir ilə şər arasında mübarizə gedir və bunların

hamısı mifik köklərə sahibdirlər. Tamaşa zamanı onlardan biri digərinə qalib gəlir.

**Səmənu bişirmə**



Bu gün yalnız dekorativ və simvolik bir forma almış "Səmənu bişirmə" qədim Novruz ənənələrindən biridir.

Keçmişdə yeni ili proqnozlaşdırmaq üçün bu yemək növü istifadə olunurdu. Beləliklə, Səmənu yeməyi bişirərkən o, parlaq yaşıl olmağa meyllidirsə, bu bolluğa işarədir. Yox əgər o, tünd yaşıl rəngə meyl edərsə, aclıq və quraqlıq ili olacaq deməkdir.

**Təkəm kuklası oynatma ənənəsi**



